Müjdə ver, ikrah oyatma. Asanlaşdır, çətinləşdirmə.

Kitabın sahibi: ______________________________

Oxu tarixi: ______________________________

# MƏTLƏÜL-ETİQAD

MƏHƏMMƏD FÜZULİ

Ərəb dilindən tərcümə:

Emin İmanlı

irşad

| | |
|---|---|
| Redaktor: | Rəşad HƏSƏNOV |
| Korrektorlar: | Vüsalə BABAYEVA<br>Turac ELDARQIZI |
| Yekun oxunuş: | Toğrul MUSAYEV |
| Tərtibatçı: | İsmayıl SÜLEYMANLI |
| Cildin dizayneri: | Bayram QAFAROV |

**محمد فضولي**
**مطلع الاعتقاد في معرفة المبدأ والمعاد**

**Məhəmməd Füzuli**
**MƏTLƏÜL-ETİQAD**

Bakı, "İrşad" Nəşriyyatı – 2025, 112 səh.

**© "Sədra İslam fəlsəfəsi fondu" nəşriyyatı / 2012**
**© Parlaq İmzalar MMC / 2025**
Kitabın bütün hüquqları qorunur. İcazəsiz olaraq hər hansı vasitə ilə nəşri və yayımlanması qadağandır.

İrşad Nəşriyyatı | 41

ISBN 9952580945

İRŞAD – Parlaq İmzalar MMC-yə məxsus markadır.

www.parlaqimzalar.az
irshad@parlaqimzalar.az
facebook.com/irshadkitab
instagram.com/irshadkitab
0559697259 / 0559897259

16+

Mətbəə: "AVE PRİNT" MMC
2025

# Mündəricat

Ön söz əvəzi 9

Giriş 15

**BİRİNCİ FƏSİL**

*Bilik və idrak* 19

I. Bilik və idrakın mahiyyəti 21

II. İdrakın zəruriliyi 23

III. İdrakın növləri 25

**İKİNCİ FƏSİL**

*Kainatın vəziyyəti* 29

I. Kainatın başlanğıcı 31

II. Kainatın hissələri 34

III. Dünya əhlinin sinifləri 40

IV. İnsan 44

V. Cinin varlığı 48

**ÜÇÜNCÜ FƏSİL**

*Zəruri varlıq və onunla bağlı məsələlər* 51

I. Qabaqcadan bilinməsi lazım olan məsələlər 53
II. Qapalı dairə və sonsuz silsilənin inkarı 58
III. Zəruri varlığın mövcudluğunun isbatı 60
IV. Zəruri varlığın zatı 68
V. Zəruri varlığın sifətləri 69
VI. Zəruri varlığın işləri 72
VII. Yaxşılıq və pislik 74
VIII. Xeyir və şər 75
IX. Zəruri varlıq üçün vacib olan öhdəlik 77

**DÖRDÜNCÜ FƏSİL**

*Peyğəmbərlik və onunla bağlı məsələlər* 79

I. İnsanların peyğəmbərə ehtiyacı 81
II. Məsumluq 88
III. Bizim peyğəmbərimizin peyğəmbərliyi 90
IV. Bizim peyğəmbərimizin digər peyğəmbərlərdən üstünlüyü 91
V. İmamət 97
VI. Yenidən diriliş 100
VII. Ruhun ölümdən sonrakı və qiyamətdən qabaqkı halları; ləzzət və ağrının duyulması 108
VIII. Tərəzi, sirat və haqq-hesab 109

*Kitabın bu nəşri ömrünü İslama həsr etmiş,*
*Nəcəf alimi, Kürqırağı bölgənin qazisi olan,*
*repressiya qurbanı Hacı İsmayıl Axund*
*və onun timsalında bütün repressiya*
*qurbanlarına ithaf olunur.*

# Ön söz əvəzi

Dahi Azərbaycan şairi Məhəmməd Füzuli (1494-1556) milli-mənəvi irsimizin əsas qurucularından biridir; o, gözəl poetik incilər müəllifi olmaqla yanaşı, həm də dövrünün fəlsəfi-teoloji biliklərini hərtərəfli mənimsəmiş bir mütəfəkkirdir. Füzulinin poetik əsərlərinə dərinlik bəxş edən də onun məhz bu cəhətidir.

Füzulinin poetik irsi ətraflı şəkildə öyrənilsə də, fəlsəfi-teoloji irsi hələ də belə bir tədqiqat obyektinə çevrilməyib. Şairin digər əsərlərində fəlsəfi-teoloji fikirlərə pərakəndə şəkildə rast gəlinsə də, bu fikirlərin sistematik şəkildə toplandığı yeganə mənbə "Mətləül-etiqad" əsəridir. Bu əsər Füzulinin nəsr formasında ərəbcə qələmə aldığı yeganə əsəridir. Füzuli bu əsərində bir filosof-teoloq kimi çıxış edir; nə fəlsəfəni teologiyaya qurban verir, nə də əksinə; hər birini öz kontekstində dəyərləndirir.

Füzulinin ədəbi yaradıcılığını doğru qiymətləndirmək və onun söykəndiyi nəzəri fundamentləri üzə çıxarmaq üçün bu kitab daim diqqət mərkəzində saxlanılmalıdır.

⋆ ⋆ ⋆

"Mətləül-etiqad" əsəri, əslində, "haradan gəlmişik və hara gedirik?" sualını cavablandırmağa çalışır. Füzuli fəlsəfi və teoloji biliklərdən istifadə edərək bu köklü sualın cavabının nəzəri bazasını işləyib hazırlamışdır. Mütəfəkkir fəlsəfə və teologiya fonunda "ağıl-vəhy" – "təfəkkür-iman" vəhdətini təsvir etməyə çalışır. O, "ağılsız vəhy və ya vəhysiz ağıl" – "təfəkkürsüz iman və ya imansız təfəkkür" dilemmasını qəbul etmir. Füzuliyə görə, təfəkkür və imanın varacağı ünvan eynidir – Allah. Bu rasional-mənəvi səfər boyu həm təfəkkür imana, həm də iman təfəkkürə işıq tutur.

"Mətləül-etiqad" əsəri həqiqəti təmsil etdiyini iddia edən "fəlsəfə" və "teologiya" adlı iki vəkilin öz iddialarını sərbəst şəkildə ifadə etdiyi bir məhkəmə səhnəsini canlandırır. Fəlsəfə ağılı, teologiya isə vəhyi danışdırır: oxuyur, təfsir edir, izah edir. Bu məhkəmənin hakimi isə əsərin müəllifi Füzulidir. Kitabın girişində qeyd olunduğu kimi, Füzuli hər ikisini dinləyib faydalı olanları seçir və bunları qorumaq üçün dörd təməl üzərində duran bir "ev" inşa edir ki, hər birindən iman bağçasına bir qapı açılır. Füzuli böyük bir ustalıqla və məntiqi ardıcıllığa əsaslanaraq bu təməlləri təsbit edir: epistemoloji,

kosmoloji, ontoloji və teoloji. "Ev" və "bağça" metaforları Füzulinin fəlsəfə və teologiyaya olan münasibətini göstərir. Fəlsəfə və teologiya bəşəri bir sahə kimi "ev"i təmsil edir; bu mənada filosof-teoloq olmaq özünü evdə hiss etmək deməkdir. "Bağça" metaforu isə bu iki sahənin özlüyündə hədəf olmadığını və mütləq həqiqətə – Allaha çatmaq üçün vasitə olduğunu bildirir; bu mənada mömin olmaq özünü bağçada hiss etmək deməkdir. Bir sözlə, ev bu dünyanı, bağça isə o dünyanı simvolizə edir. Bu isə qapalı bir məkandan açıq bir məkana keçiddir.

Füzulinin "Mətləül-etiqad" əsərində istifadə etdiyi metod olduqca diqqətəlayiqdir və günümüz üçün nümunəvi sayıla bilər. O, digər fikirlərə qarşı tolerant və plüralist mövqe sərgiləyir. Füzuli düşüncə dünyasında çoxluğun mövcudluğunu və legitimliyini qəbul edir. Əsərdə bir çox filosof və teoloqlardan gətirilən sitatlar bunun bariz sübutudur. Füzuli öz timsalında göstərir ki, insan müəyyən bir inanca sahib olduğu halda, digər fikirlərə qarşı dözümlü ola və düşüncə dünyasında müxtəlifliyi müdafiə edə bilər.

* * *

"Mətləül-etiqad" əsərindən ilk dəfə XVII əsrin məşhur biblioqrafı Katib Çələbi (1609-1657) "Kəşfuz-zunun" əsərində[1] bəhs etsə də, əsər elm aləminə məlum olma-

1. Bax: c. 2, səh. 1719

yıb və onun nüsxələrinə heç bir yerdə rast gəlinməyib. Nəhayət, əsərin yeganə əlyazması 1935-ci ildə Leninqrad Şərqşünaslıq İnstitutunun əlyazmalar şöbəsində tapılan məcmuənin bir hissəsi olaraq Bertels Eduardoviç (1890-1957) adlı rusiyalı şərqşünas tərəfindən aşkarlanıb. Əlyazmanın yerləşdiyi məcmuənin üzərində qeyd olunan tarixə əsasən bu məcmuə 1589-cu ildə Bağdadda Həsən Kəndxuda adlı bir şəxsin əlinə keçib ki, bu da əsərin Füzulinin ölümündən təxminən 33 il sonra istinsax edildiyini göstərir.

Azərbaycanda ilk dəfə bu əlyazmanı dəyərli ədəbiyyatşünas, akademik Həmid Araslı araşdırıb və sinkoqrafiya üsulu ilə mətni əlyazmadan köçürərək mətnşünaslıq baxımından mövcud əlyazmanın üzərində heç bir düzəliş etmədən nöqsanlı halda 1958-ci ildə Bakıda nəşr etdirib. 1962-ci ildə isə Ankara Universitetinin İlahiyyat fakültəsinin professoru Məhəmməd Tanci (1918-1974) əlyazmanı tənqidi təshih edərək Türkiyədə nəşr etdirib. Nəhayət, "Mətləül-etiqad" əsəri 2012-ci ildə üçüncü dəfə Həmid Araslı və Məhəmməd Tancinin nəşrləri əsasında Sübhanəli Kuşa tərəfindən təshih və tədqiq edilərək "Sədra İslam fəlsəfəsi fondu" nəşriyyatı tərəfindən çap edilib.

* * *

Füzulinin Azərbaycan dilində oxuculara təqdim olunan bu əsərinin orijinal adı "Mətləul-itiqad fi mərifətil-

məbdəi vəl-məad"dır, yəni "Başlanğıc və sonun dərk olunmasına dair inanc qaynağı". Adətən əsərin adı ixtisar edilərək "Mətləül-etiqad" kimi verilir. "Mətləül-etiqad"ın olduqca mühüm bir klassik əsər olduğunu nəzərə alaraq, oxunaqlılığı qorumaq şərtilə tərcümə zamanı orijinalın dəqiqliyini qorumağa və mətnə hər hansı bir izah xarakterli qeyd artırmamağa çalışmışıq. Kitabda işlədilən bəzi termin, cərəyan və şəxs adları haqqında haşiyədə qısa izahlar vermişik.

Bizim yeni tərcüməmizdən əvvəl əsər iki dəfə Azərbaycan dilinə tərcümə edilib: birinci dəfə 1985-ci ildə H. Zərrinzadə, ikinci dəfə isə 1987-ci ildə akademik Ziya Bünyadov tərəfindən Azərbaycan dilinə çevrilib. Hər iki tərcümədə mövcud olan ciddi tərcümə xətalarını və elmi qüsurları nəzərə alaraq "Mətləül-etiqad"ı ana dilimizə yenidən tərcümə etmək qərarına gəldik. Əsərin ərəb dilindən edilən bu tərcüməsində Sübhanəli Kuşa tərəfindən təshih edilmiş nəşri əsas götürmüşük və tərcümə zamanı fəlsəfi terminlərin müasir ekvivalentləri ilə əvəzlənməsinə üstünlük vermişik.

* * *

Sonda iki dəyərli dostuma – kitabı yüksək bir diqqətlə redaktə etdiyinə görə ərəb dili və ədəbiyyatı üzrə fəlsəfə doktoru Rəşad Həsənova və yekun oxunuşa görə "Parlaq İmzalar" nəşriyyatının baş redaktoru Toğrul Musayevə təşəkkür etməyi özümə borc bilirəm.

Ümid edirəm ki, Füzulinin “Mətləül-etiqad” əsərinin bu yeni tərcüməsi füzulişünas tədqiqatçıların, habelə dahi şairin yaradıcılığına maraq göstərən geniş oxucu kütləsinin rəğbətini qazanacaq.

***Emin İmanlı***
***Bakı, 01.09.2025***

# Giriş

Rəhman və Rəhim olan Allahın adı ilə
Ondan kömək diləyirik!

Mümkün varlıqları fitrət feyzi ilə şərəfləndirənə, onları öz varlığının zəruriliyinə dəlil edənə, onların arasından insanı dinin hökm və qanunlarını bilməklə seçib fərqləndirənə, onlara öz içərilərindən Öz səxavət xəzinələrinin açarları olan aşkar dəlillərlə birgə elçilər göndərənə, sonra da həmin elçilər arasından peyğəmbərimizi seçib onun gəlişi ilə vəhyi aləmlərin üzünə bağlayana, bizi ona tabe olmaq şərəfi ilə başqa ümmətlərdən fərqləndirib ayırana və mələklərlə birlikdə ona şahidlər qılana həmd edirəm!

Bətnlərin qatlarında bədən üzvlərinə və əzaların quruluşuna şəkil verənə, onları ruh, ağıl, duyğu və qüvvələrin mərkəzinə çevirənə, “Adəmə adları öyrət-

diyi”[1] kimi, ruha da üzvlərin sirlərini ilham edənə, Adəmi yuxarı aləmə tabe etdiyi kimi, üzvləri də ruha tabe edənə şükür edirəm!

Göndərilməsi ilə bizim üçün varlıq nemətləri tamamlanan, ona və onun ailəsinə xeyir-dua etmək səadəti ilə bizim üçün səxavət töhfələri mükəmməlləşən sərvərimiz Məhəmmədə və onun kamil nurlarının parıltıları və xəyal izlərinin təzahürləri olan əshabına xeyir-dua edirəm!

Bundan sonra:

Özünü dinin təməl elmlərinin bilicisi zənn edən bəndə – “Füzuli” təxəllüslü Məhəmməd bin Süleyman deyir:

Mən varlıqlara duyğu və ağıl gözü ilə baxdım, onların içərisində təfəkkür və düşüncə addımları ilə addımladım və hər hansı bir cinsdən bir növü, hər hansı bir növdən bir sinfi, hər hansı bir sinifdən bir fərdi, yaxud hər hansı bir fərddən bir üzvü görmədim ki, istər məqsədli, istərsə də məqsədsiz şəkildə bir işlə məşğul olmasın. Buna görə də laqeydlik və tənbəllikdən çəkinib qəflət içərisində ömrü bada verməkdən ehtiyatlandım, elə bir iş seçdim ki, onunla həm müqəddər, həm də mümkün olan bir sıra mətləblər əldə oluna bilsin.

---

1. Bəqərə, 31

Bu vaxt “Elm sehr də olsa, onu öyrənin!” – deyimi məni həvəsləndirdi, “Biz ona şeir öyrətmədik”,[1] – ayəsini söyləyən mənə bilik bəxş etdi. Beləliklə, sözləri nəzmə çəkmək yolunu tutdum və bu yolda nəzmin hikmətini dərk etdim. Nəzmim mənə göstərdi ki, nəsnələrin nizamının da bir nizamlayanı, duyulan və dərk olunan əlamətlərin də bir əlamət qoyanı var. Onun ali inayətindən yardım diləyərək Onu tanımağın yolunu axtardım. Arzum – düz yolla getməkdir. Uğura çatmaqda Özü mənə kömək olsun!

Beləliklə, müxtəlif düşüncə sahiblərinin yolları ilə tanış olub bunların içindən faydalı olanlarını seçəndə zaman onların qorunub saxlanmasını tələb etdi, onların itib-batacağından qorxub aşkara çıxarılmasını istədi. Mən də onları qorumaq üçün dörd təməl üzərində bir ev qurdum ki, hər birindən iman bağçasına bir qapı açılır və onu: “Başlanğıc və sonun dərk olunmasına dair inanc qaynağı”, – adlandırdım.[2]

Birinci fəsil – bilik və idraka;

İkinci fəsil – kainatın vəziyyətinə;

Üçüncü fəsil – zəruri varlığa;

Dördüncü hissə isə – peyğəmbərlik və onunla bağlı məsələlərə dairdir.

---

1. Yasin, 69
2. Tərcümədə Füzulinin “təməl” adlandırdığı hissələr fəsil, “qapı” adlandırdığı başlıqlar isə Roma rəqəmləri ilə əvəz edilib. – Tərc.